AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 19

Bakı şəhəri "04" mart 2013-cü il

**"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında"**

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21.01.2013-cü il tarixli 2679 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 11-ci bəndinin icrası məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş tədbirlərin keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Xüsusi Planı təsdiq edilsin (əlavə olunur).
2. Səhiyyə Nazirliyinin struktur bölmələrinin və tabeliyində olan səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, bu əmrin birinci bəndi ilə təsdiq edilmiş Xüsusi Planın icrası təmin edilsin.
3. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 04.03.2013-cü il tarixli 19 nömrəli əmri ilə təsdiq edilmişdir

## Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş tədbirlərin keçirilməsi üzrə Səhiyyə Nazirliyinin

## XÜSUSI PLANI

| | Tədbirin adı | Məsul icraçılar | İcra müddəti |
|---|---|---|---|
| 1. | Səhiyyə Nazirliyində Heydər Əliyevin xatirəsinə həsr olunmuş yubiley iclasının keçirilməsi | Səhiyyə Nazirliyi | may 2013-cü il |
| 2. | Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Tibb jurnalı"nın yubiley nömrəsinin buraxılması | Mətbuat katibi, "Tibb jurnalı" redaksiyası | may 2013-cü il |
| 3. | Tibb təhsili müəssisələrində Heydər Əliyev dərslərinin keçirilməsi | ATU, Ə.Əliyev adına ADHTİ, tibb kollecləri | aprel-may 2013-cü il |
| 4. | Respublika Dövlət Elmi Tibb Kitabxanasında və Azərbaycan Təbabəti Muzeyində Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto-ekspozisiya guşələrinin yaradılması | Respublika Dövlət Elmi Tibb Kitabxana, Azərbaycan Təbabəti Muzeyi | may 2013-cü il |
| 5. | Heydər Əliyevin müstəqil Azərbaycan səhiyyəsinin inkişafın-da xidmətləri mövzusunda tibb sahəsində aparıcı alimlərin və mütəxəssislərin iştirakı ilə dəyirmi masaların keçirilməsi | Elmi-tədqiqat və respublika tabeli müəssisələr | aprel-may 2013-cü il |
| 6. | Səhiyyə idarə və müəssisələrdə Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbirlərin keçirilməsi | Respublikanın şəhər, rayon səhiyyə idarə və müəssisələri | aprel-may 2013-cü il |